# Kamal Talıbzadənin tənqid konsepsiyası

**Fidan Abdurəhmanova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəycilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. İ.M. Ağakərimov

**Açar sözlər:** tənqid ənənələri, Kamal Talıbzadə, Qorki və Azərbaycan
**Ключевые слова:** традиции критики, Камаль Талибзаде, Горький и Азербайджан
**Key words:** criticism traditions, Kamal Talibzade,Gorky and Azerbaijan

*Tənqidşünas hər şeydən əvvəl həyatşünas olmalıdır.*
*K. Talıbzadə*

Kamal Talıbzadə 40-cı illərdə indiki Bakı Dövlət Universitetini bitirərkən o zaman üçün siyasi ideoloji baxımdan o qədər də əlverişli olmayan mövzuda “M.Hadi və Azərbaycan romantizmi” adlı geniş diplom işi yazdı. Bir neçə il sonra – 1949-cu ildə isə daha cəsarətli bir addım ataraq “Abbas Səhhətin  həyat və yaradıcılığı” adlı mövzusu namizədlik dissertasiyası yazaraq, müdafiə etmişdir. Romantizmə belə bir doğma və cəsarətli münasibətin əsasında akademikin atası böyük romantik Abdulla Şaiqin həyat dərsləri dayanırdı. “Müəllimliyi qəhrəmanlığa, vətəndaşlığa və fədakarlığa çevirməyin belə bir nümunəsi ilə Şaiqin və onun təmsil etdiyi böyük xalq müəllimləri nəslinin timsalı ilə milli pedaqoji fikir həm də dərin sosial-mənəvi dəyər kəsb edirdi. “Şaiq məktəbi” bir də məhz belə bir vətəndaşlıq, insanlıq, nəciblik və ictimai fəallıq məktəbini, onun nəcib ənənələrini özündə birləşdirirdi” [1, 574].

Kamal Talıbzadə XX əsrin klassiklərinin M.Hadinin, S.Hüseynin M.Hüseynin, S.Vurğunun, M.İbrahimovun, S.Rəhimovun, M.Arifin gəlib-getdiyi evdə böyümüş və dünyagörüşü formalaşmışdı. Dünya və rus ədəbiyyatına maraq, K.Talıbzadədə 50-ci illərdə maraq formalaşır. 20-30-cu illərdə dəfələrdə  illərdə Bakıya gəlmiş iki sovet yazıçısı proletar ədəbiyyatının banisi M.Qorki və V.Mayakovski haqqında yeniyetmə yaşlarından atasının dostlarından və həmkarlarından eşitdiyi canlı söhbətlər bu şəxsiyyətlərin yaradıcılığına böyük maraq oyatmışdı. Həm də bu illərdə proletar ədəbiyyatının banisi M.Qorki haqqında əsər yazmaq, böyük şərəf və məsuliyyət idi. 1959-cu ildə Kamal müəllimin “M.Qorki və Azərbaycan” monoqrafiyası çap olundu.

Ustadı akademik K.Talıbzadənin 75 illiyində çap etdirdiyi “Türk təfəkkürü məcrasında” (1998) monoqrafiyasında N.Şəmsizadə bu əsərə ədəbi nəzəri qiymət verərək yazır: “50-ci illər ədəbiyyatşünaslığında metodoloji sapıntıların baş alıb getdiyi istiqamətlərdən biri ədəbi əlaqələr sahəsi idi. Lap 70-ci illərə qədər yazılmış məqalə və monoqrafiyalarda ədəbi əlaqələr az qala “böyük qardaşın” “kiçik qardaşa” təsiri səviyyəsində birtərəfli izah olunurdu.

Xüsusilə söhbət rus ədəbiyyatı ilə əlaqələrdən gedəndə rus şovinizminin hakimlik prinsipləri ön plana keçib. Məsələn, C.Məmmədquluzadədən danışarkən N.V.Qoqol təsiri, N.B.Vəzirovdan bəhs olunanda A.Ostrovski təsiri, Ə.Haqverdiyevdən söz düşəndə A.P.Çexov təsiri həlledici sayılıb” [2, s. 46].

Bu mülahizələri monoqrafiyanın stukturu ilk baxışdan təsdiq edir. Belə ki, kitabda tədqiqatın əsas konsepsiyasını “Qorki inqilaba qədər ki Azərbaycan mətbuatında”, “Azərbaycan Qorki yaradıcılığında”, “Qorki sovet Bakısında”, “Qorki və Azərbaycan mədəniyyəti”, “Qorki ənənələri və Azərbaycan ədəbiyyatı” kimi problem ayrı-ayrı fəsillər şəklində öz əksini tapır. Akademik K.Talıbzadə Qorki Azərbaycan problemini təkcə ədəbiyyatşünaslıq kimi həll etmir, daha çox Qorki və Azərbaycanda ədəbi-tarixi kontekstdə araşdırır. Belə bir düzgün metodoloji başlanğıcdan çıxış edir ki: “Azərbaycan ədəbiyyatı heç bir zaman milli məhdudiyyət nə olduğunu bilməmişdir. O, həmişə böyük ədəbiyyatın yolu ilə getmiş, həm öyrətmiş, təsir etmiş, həm də dünya ədəbiyyatının qabaqcıl ənənələrindən bəhrələnmişdir. Azərbaycan ədəbiyyatının tarix boyu irəlidə gedən bir ədəbiyyat kimi, şöhrət qazanmasının mühüm sirlərindən biri də budur” [3, s. 47].

1969-cu ildə kitabın rusca nəşrinə müqəddəmə yazmış məşhur rus ədəbiyyatşünası Aleksandr Dımşits belə bir fikir söyləyir: “inamla demək olar ki, Kamal Talıbzadəyə qədər heç kim bu işin müəllifi kimi mövzunu düzgün metodoloji mövqedən və əhatəli işıqlandıra bilməmişdi. Onun üçün ədəbi təsir bir yazıçının digərinə tabe edilməsi deyil, ədəbi fəaliyyətə təzyiq göstərən deyil, onun inkişafı üçün stimul yaradan səmərəli qarşılıqlı təsir aktıdır”. Beləliklə “Qorki və Azərbaycan” kitabında ədəbi təsir problemi bir tərəfli deyil, qarşılıqlı ədəbi təsir kimi öyrənilmişdir. Bu o zaman üçün ədəbi əlaqələr elmi sahəsində bir yenilik idi. “Qorki və Azərbaycan” monoqrafiyasında maraqlı fəsillərindən biri “Qorki inqilaba qədərki, Azərbaycan mətbuatında” adlanır. Bu fəsildə müəllif 1900-1920-ci illər dövründə Azərbaycan milli mətbuatında o zamankı sinfi ideoloji anlayışla desək, həm realist demokratik mətbuatında həm də burjua mətbuatında M.Qorkinin orijinal əsərlərini, tərcümələrini və Qorki haqqında məqalələrin sistemli təhlilini aparır, belə qənaətə gəlir ki, “Qorkini Azərbaycan burjua mətbuatında çap olunmuş orijinal əsərləri, eləcə də onun haqqında yazılmış məqalələr Azərbaycanda ədəbi fikrin inkişafına təsirsiz qalmadı”. (K.Talıbzadə). Bu həm elmi nəzəri, həm də tarixilik baxımından doğru mövqe idi. Həm o zaman burjua mətbuatı adlandırılan Füyuzad, Həyat, Kaspi və s. kimi mətbuat orqanlarında, həm də realist demokratik mətbuatda çap olunan fikirlər ideoloji baxımından fərqlənsə də Qorkinin yaradıcılığı təqdim etmək nöqteyi-nəzərindən və ədəbi əlaqələrin inkişafı baxımından ümumi əhəmiyyətə malik idi.

“Qorki və Azərbaycan” monoqrafiyası həm Azərbaycan ədəbiyyatşünaslığında ədəbi əlaqələrin öyrənilməsi sahəsində, həm də K.Talıbzadənin bir ədəbiyyatşünas tənqidçi kimi fərdi yaradıcılıq təkamülü baxımından böyük əhəmiyyətə malik oldu. “Qorki və Azərbaycan” monoqrafiyası müəllifinə ədəbi mühitdə böyük nüfuz qazandırmaqla onun gələcək elmi nailiyyətləri üçün körpü rolunu oynayıb [4]. Belə ki, bu əsəri yazarkən, Kamal müəllim intensiv surətdə və sistemli olaraq, XX əsrin ədəbi tarixi mühiti, milli mətbuatı və o dövrün tənqid tarixi və nəzəriyyəsi ilə məşğul olmaq imkanı əldə etdi. Təsadüfi deyil ki, 1965-ci ildə “Qorki və Azərbaycan” monoqrafiyasından sonra K.Talıbzadə “XX əsr Azərbaycan tənqidi” mövzusunda doktorluq dissertasiyası yazdı. Bu əsər akademik Feyzulla Qasımzadə, akademik M.Arif, professor Əziz Şərif, akademik Mirzə İbrahimov kimi görkəmli alimlər tərəfindən ədəbiyyatşünaslığımızda hadisə kimi qiymətləndirildi. Bu əsərlə də K.Talıbzadə Azərbaycanda tənqidşünaslıq elminin əsasını qoydu. Tənqid tarixinə və nəzəriyyəsinə həsr olunmuş bu fundamental monoqrafiya təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-yə daxil olan bütün türk respublikalarında böyük bir tənqidşünaslıq məktəbini formalaşdırdı.

“K.Talıbzadəyə qədər Qorki ilə yaradıcılıq əlaqəsi problemini tədqiq edən müəlliflərin hamısı bu əlaqələrin milli ədəbiyyatlarda inqilabi ideya yaradıcılıq prinsiplərinin, yəni

sosialist realizminin təşəkkülü ilə əlaqədar tərəfinə xüsusi diqqət yetirmiş, məsələnin bu istiqamətdə təhlilinə ciddi əhəmiyyət vermişdilər. Azərbaycan ədəbiyyatşünasları da tədqiqatlarında problemi bu aspektdə araşdırmış, buna görə də Qorki və Azərbaycan mövzusunu düzgün metodoloji mövqedən işıqlandıra bilməmişdilər" [5., 102]. K.Talıbzadə "Qorki və Azərbaycan" adlı monoqrafiyasında milli ədəbiyyatların qarşılıqlı əlaqə və təsiri kontekstində tədqiq edilməsi zəruriliyini irəli sürmüşdür. Ədəbi əlaqələrin inkişaf tarixinə, M.Qorkinin milli ədəbiyyatımızla əlaqələrinə diqqət yetirmişdir [6]. Professor Şirindil Alışanlı Yaşar Qarayev haqqında məqaləsini Kamal Talıbzadənin tənqidçi haqqında gözəl fikirləri ilə yekunlaşdırır. Bu fikirləri tənqidçinin özünə aid edirik: "Ağlının, zəkasının bütün ruhunu yazdığı əsərlərinə köçürən Yaşar Qarayevin əbədiyyətə hicrəti, bütün xalqımız, xüsusən onu şəxsən tanıyanlar, şəxsiyyəti ilə təmasda olanlar üçün nə qədər ağır olsa da, əbədi ölümsüzlük səlahiyyətinin təsdiqidir. Böyük Ağlın gücü və əbədi ruhun məsumluğunu özündə birləşdirən Yaşarın əsərləri bundan sonra da neçə-neçə alimlər nəslinə yol göstərəcəkdir". Kamal Talıbzadə tənqidimizin tarixi və nəzəriyyəsini sistemə salan görkəmli tənqidşünas alim idi. O, yazırdı: "Tənqidşünas hər şeydən əvvəl həyatşünas olmalıdır" – bu fikir onun tənqid konsepsiyasının əsasını təşkil edir.

**Məqalənin aktuallığı.** Mütəxəssislər XX əsri bir sıra ədəbi tarixi xüsusiyyətlərlə bərabər həm də ədəbi tənqid əsri hesab edirlər. Akademik Məmməd Cəfər yazırdı ki: "Rus ədəbiyyatının XIX əsri Azərbaycan ədəbiyyatının XX əsrinə bənzəyir". Bu fikir həm də oradan qaynaqlanırdı ki, XIX əsr rus ədəbiyyatında böyük tənqid əsri idi: Çernişevski, Belinski, Pisarev, Dobrolyubov kimi dünya ədəbi tənqidinin korifeyləri XIX əsrdə qısa bir müddətdə yaranıb, fəaliyyət göstərmişlər. Təxminən belə bir ədəbi-ictimai vəzifəni Azərbaycan ədəbiyyatında M.F.Axundzadənin tənqid ənənələri, maarifçiliyin və mətbuatın intensiv inkişafı sayəsində XX əsrdə Əlibəy Hüseynzadə, F.Köçərli, Abdulla Sur, bir qədər sonra 20-30-cu illərin represiyaya məruz qalmış bütöv bir tənqid nəsli – B.Çobanzadə, Ə.Nazim,S.Mümtaz, Ə.Abid, H.Zeynallı, A.Musaxanlı, M.Ələkbərli kimi sonralar ümumsovet ədəbi fikrinə "iftixara layiq imzalar" (A.V.Lunaçarski) kimi daxil olmuş, fədakar tənqidçilər nəsli formalaşdı.

**Məqalənin elmi yeniliyi.** Ədəbi tənqidimizin Akademik Kamal Talıbzadənin mənsub olduğu üçüncü nəsli – M.Arif, M.Cəfər, Ə.Ağayev, Ə.Mirəhmədov, F.Qasımzadə, M.Rəfili, bir ədəbi tarixi nəsil olaraq, 40-cı illərdə əsasən ikinci cahan müharibəsindən sonra öz nəzəri estetik prinsipləri olan mərhələ kimi təşəkkül tapdı. Kamal Talıbzadə bu mərhələyə mənsub tənqidçilər sırasında iki novator vəzifəni icra etmiş oldu:

1. Cəsarət və istedadla nəzəri filoloji müəyyən qədər 37-nin faciəsindən və sosioloji gərginlikdən uzaqlaşdıra bildi;
2. Təsvir tənqidindən təhlil tənqidinə keçidin əsasını qoyaraq ("Tənqidimiz haqqında düşüncələr" kitabı) sonralar 60-cı illər tənqidinin intellektual tənqidinin estetik konsepsiyasının yaranmasına istiqamət verdi.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də ədəbi tənqidçilər üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. Y. Qarayev. "Azərbaycan ədəbiyyatı XIX – XX əsr yüzillər". Bakı: Elm, 2002.
2. N. Şəmsizadə. Türk təfəkkürü məcrasında: Monoqrafiya. Bakı, 2015.
3. K. Talıbzadə. Qorki və Azərbaycan. Bakı: Azərbaycan SSRİ EA-nın nəşri. Bakı, 1959.

4. F. Qaraoğlu. Tarixdə iz buraxanlar: Kamal Talıbzadə. Bakı: Xəbər. 30.03.2018.
5. T.Rəhimli. Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri. Bakı: Avropa, 2009.
6. S.Şərifova. Kamal Talıbzadənin tənqidində ədəbi refleksiya. 525-ci qəzet, 1915, 10 avqust.
7. Ş. Alışanlı. Yaşar Qarayev yaxından-uzaqda. "Respublika" qəz., 2016, 4 dekabr.

**Ф. Абдурахманова**

## Концепция критик Кемала Талибзаде

## Резюме

Третье поколение, литературная критика которого — академик Кемаль Талибзаде - М. Ариф, М. Джафар, А. Агаев, А. Мирахмедов, Ф. Газимзаде, М. Рафили, как литературно-исторический жанр 40-х годов, в основном после теоретические эстетические принципы Второй мировой войны.

Эта фундаментальная монография, посвященная истории и теории критики, сформировала великую школу критики не только в Азербайджане, но и во всех тюркских республиках бывшего СССР.

**F. Abdurahmanova**

## Mind Kemal Talibzadeh criticism conception

## Summary

The third generation, the literary criticism of which is the academician Kemal Talibzadeh - M.Arif, M.Jafar, A. Agayev, A.Mirahmedov, F.Gazimzade, M.Rafili, as a literary historical genre in the 40s, mainly after the Second World War theoretical aesthetic principles.

This fundamental monograph, dedicated to the history and theory of criticism, has shaped a great school of criticism not only in Azerbaijan, but also in all Turkic republics of the former USSR.

**Redaksiyaya daxil olub:** 26.09.2018